# YAŞANMIŞ ÖMÜRDƏN YADDAŞ İMPROVİZƏLƏRİ

## *Təhminə Rafiq qızının «Azad» əsəri haqqında düşüncələr*






Müasir ədəbi-mənəvi mühitin əsas daşıyıcısı olan gəncliyin özünü ifadə ölçüsü, meyarı təkcə bizim tarixi və klassik dəyərlərimizdən gəlmir, bu günün yazarları istəsək də, istəməsək də dünya ədəbi örnəklərindən - özü də postmodern təsirin gücü ilə dəyişməkdə olan ölçülərə, meyarlara əsaslanır. Ona görə də biz müasirlərimiz olan gəncləri niyə bizim kimi yazmırsınız? - deyə ittiham edə bilmərik. Çünki təkcə dünya sərhədsizləşməyi ilə qloballaşmır, həm də mənəvi qovuşuqları ilə dünyaya açılma prosesi gedir. Şübhəsiz, bu proses bizim xalqımızdan da yan keçmir. Ona görə də özünüifadə imkanı olan hər bir gənc tam normal istəklə sözə doğru gəlirsə, bu, onun haqqıdır deməkdən başqa yolumuz qalmır. Bu başqa məsələdir ki, özünüifadə üçün əlinə qələm götürən gənc sözü hansı dərəcədə mənalandıra bilir, və yaxud da sözü mənalandırmaqdan xeyli kənarda sözün mahiyyətinə doğrü mücadilə aparır. Mən Təhminə Rafiq qızının ilk kitabına, lirik şeirlərinə də «Ön söz» yazmışam. Etiraf edirəm ki, o, mənə lirikasında kifayət qədər səmimi təsir bağışlamışdı. Mənə elə gəlirdi ki, Təhminə Rafiq qızı elə yaradıcılığını poetik janrda davam etdirəcək. Amma indi onun «Azad» adlandırdığı və janrını da roman olaraq göstərdiyi nəsr əsəri ilə üzbəüzəm.

Doğrusu, əsəri birnəfəsə oxudum. Həyəcanlandığım anlar da az olmadı. Əsas odur ki, müəllifin yaradıcılıq zamanı qələmə aldığı hisslər (hər halda mənə belə gəldi, çünki yaradıcılıqda yaşanmış hissləri zaman baxımından əvvəlki obrazların, yəni daha əvvəl yaşamış insanların da təbiətinə köçürmək, zənnimcə, qanuna uyğundur. Bəlkə də yaradıcılığın əsas şərtlərindən elə biri budur) təbii olsun, yaşanmış hisslər olsun. Açığı əsər boyu obrazların təbiətinə nüfuz etdikcə mən real insanları görürdüm. Çünki bu insanlar - əlbəttə, söhbət əsərin qəhrəmanları olan gənclərdən gedir - mənə çox tanış və doğma gəldi; hissləri, duyğuları ilə, cəmiyyətdəki yerləri, mühitlərindəki görüntüləri ilə...

Əvvəlcə, əsərin janrı ilə bağlı bir-iki kəlmə demək istərdim. Doğrudur, müəllif əsərin janrını roman kimi göstərir. Ancaq burada bir-birini izləyən hadisələrin ardıcıllığı sadəcə bir əhvalatın - sevgi əhvalatının başlanğıcı və sonucu ilə yekunlanır. Doğrudur, əsərin sonuna doğru hadisələrin daha sonrakı otuz illik zamana işarələri də var. Yəni qısa müddətli sevgi macərası və bu sevgi macərasının qismət bitməsindən sonra bir mənəvi mərhələ də gəlir. Məlumdur ki, əsərin qəhrəmanı Nuriyyə indi əlli yaşındadır. Bu, əlbəttə, bütövlükdə bir həyat romanıdır. Ona görə də bu əsərin əsl roman variantının hələ bəlkə neçə illər sonra yazılacağını da düşünməyimə müəllifin mənəvi enerjisi əsas verir. Ancaq əsər povest janrı ilə dərc olunsa, daha ədalətli olardı.

Qayıdıram o yerə ki, müəllifin yaradıcılığa lirik şeirləri ilə başladığını qeyd etmişdim və ilk şeirlər kitabına da ön söz yazmışdım. Bu əsərdə onun poetik yaradıcılığının davamını gördüm. Yəni ayrı-ayrı hissələr müəllifin yaradıcılığından gələn poetik duyğular kimi yazıya alınıb.

Müəllif əsərin lap əvvəlində epiqraf adı altında qeyd edir «Şəhid Azad Abbasovun xatirəsinə» və bundan sonra daha bir yarımçıq cümləni mötərizədə işlədir: «Gerçək həyatdan götürülmüş...» Nə demək olar? Hər halda müəllifin yanaşmasındakı həssaslığı, onun məramını, zənnimcə bu qısa qeydlərdə də bizə qədərincə təqdim edir. Və anotasiya əvəzi belə bir qeydlər də diqqətimizi çəkir: «Sevgi nədir?» sualına mən bu roman ilə cavab verərdim. Uilyam Şekspir belə deyib: «Amal sevgi uğrunda ölmək deyil, uğrunda ölünəcək sevgi tapmaqdır». Uğrunda ölünəcək sevgi isə azdır bu həyatda...» Düşünürəm ki, müəllif bu poetik duyğulanmaları əsərin əvvəlinə epiqraf sayağı mətn kimi gətirənəcən çox gərgin yaşantılar keçirib. Yazacağı həyatı, yəni əsərinə gətirəcəyi qəhrəmanların taleyini məhz bu klassik düsturlarla ifadə edəcəyinə qabaqcadan inanıb.

Çoxları deyir ki, İkinci Qarabağ savaşında qalib gələn gənclərin ömür yolu müstəqillikdən sonrakı dövrlə bağlıdır. Amma bu əsər çox dəyərli bir hökmlə daha dərin həqiqəti diktə edir; yəni Birinci Qarabağ savaşındakı vətənsevərlik və Vətən uğrunda şəhidlik anlamı mənəvi mühitimizə daxil olmasaydı, heç İkinci Qarabağ savaşında da qalib gələ bilməzdik. Yəni bünövrə elə Qarabağ uğrunda savaşın ilk günlərindən daha sağlam özüllər üzərində qoyulmuşdu.

Zənnimcə, burada məlumat da vermək olar. Azad Abbasov 1973-cü ilin may ayının 9-da Beyləqan rayonunun Yeni Mil qəsəbəsində doğulmuşdu. Kifayət qədər aydın məlumatdır. Qarabağ savaşının başladığı zamanda onun artıq 18 yaşı tamam idi. O, Vətənin nə demək olduğunu kifayət qədər bilirdi və eyni zamanda insanlıq üçün, insanlığın mənəvi dəyərinə çevriləcək ən ali hissin, yəni sevgi hissinin də nə demək olduğunu artıq bu yaşda o, öz canında duymuşdu. Bütün varlığı ilə sevginin nə demək olduğunu artıq bilmişdi.

Azad və Nuriyyə - bu iki gənc kifayət qədər insanlığın təbiətinə aid olan ali hissləri yaşamaq və bunu varlıqlarında hiss etmək gücündə idilər.

Əsərin birinci hissəsi bütövlükdə bu iki gəncin sevgi duyğularının izharı ilə süslənir. Axı yuxarıda qeyd etdim, Təhminə Rafiq qızı (mən ona Təhminə Təknur təxəllüsünü də təklif etmişdim) yaradıcılığa şeirlə başlayıb. Görünür, poeziya onun ruhuna elə bir dərəcədə hakimdir ki, o, nəsr yaradıcılığını da elə poetik bir əhvalın təsiri altında davam etdirir: «Nə gözəldir sevgi hissi. O hiss ki, insanları bir-birinə bağlayır, onların qəlbini ovsunlayır, dünyasını gözəlləşdirir. Sevgi hissi insanları bir-birinə yaxınlaşdırır, anlayış və qayğı ilə dolu bir əlaqə yaradır. Bu hiss insanlara güc və dəstək verir, həyatın çətinliklərini daha asan keçməyə kömək edir. Sevgi, həmçinin insanlara xoşbəxtlik və məmnunluq hissi bəxş edir. Onları daha müsbət və səmimi edir. Sevginin gücü ilə insanlar birgə həyatın gözəlliklərini paylaşır və daha yaxşı bir gələcək qurmağa can atırlar. Bu duyğu başlanğıcdan sonra zamanlar inkişaf edir və müxtəlif mərhələlərdən keçir. İnsan həyatını mənalı edən də məhz bu duyğudur. Ömür boyunca bu hiss daha da dərinləşə bilər. Sevgi zamanla daha güclü bir bağlılıq və etibar yaradır. Bu mərhələdə insanlar bir-birlərinə qarşı daha sadiq və inamlı olurlar. Sevgi isə həyatımızda əbədi bir iz buraxır. Sevgimizin izləri, xatirələri və təsirləri zamanla yaddaşımızda qalır və bizi formalaşdırır. Sevgi yalnız bir hiss olaraq qalmır, həyatımızın hər bir sahəsinə təsir edir, bizi və münasibətlərimizi daha mənalı və zəngin edir». İndi kim deyə bilər ki, bu duyğulanmalar şeir deyil. Əlbəttə, kimsə iddia edə bilər ki, essevari düşüncələrdir. Müəllifin poetik publisistik qeydləridir və s. hərə bir cür yanaşa bilər. Əsas odur ki, mətn bütövlükdə ovqatın poetik şərhidir. Bu da o deməkdir ki, Təhminə Rafiq qızı (Təhminə Təknur) həqiqətən təbiət etibarı ilə şairdir, öz hisslərini, duyğularını da poetik ovqatda ifadə edir.

Mən burada əsərin məzmununu danışmaq fikrində deyiləm. Amma müəllifin müraciət etdiyi mövzunun həyatdan gəlmə olduğunu, onun təsvirlərinin hər bir məqamının real insanların həyatında yaşanma ilə bağlı olduğunu inkar edəcək heç bir dəlil əsaslı ola bilməz zənnindəyəm.

Müəllifin yaşanmış hissləri ilə bağlı düşüncələri onun öz əsərini poetik üslubda aparmasına rəvac verir. O, yeri gəldikcə sevgi ovqatı ilə bağlı qadının və kişinin (oğlanın və qızın) yaşadığı anlamlı məqamları özünün poetik təsvir üslubunda davam etdirməkdən yorulmur. Əlbəttə, çox güman ki, bu cür yanaşmalar onun öz qəhrəmanlarını (Azadı və Nuriyyəni) mənən böyütmək istəyindən irəli gəlir. Əsər boyu müəllif gənclər arasındakı dialoqu xüsusi həssaslıqla aparır.

İki gəncin arzularını dinləmək (bəli, əsər boyu iki gəncin arasındakı dialoq o qədər canlıdır ki, sanki biz onların səsini eşidirik) hər hansı bir qəlbi ehtizaza gətirmək gücündədir. İki gənc öz arasında gələcək həyatlarını təmin edəcək mənəvi sarayı qurmaqdadırlar. Hətta, onlar dünyaya gələcək övladlarına ad da seçirlər. Özü də həmin övladın qız olmağını arzulayırlar. Bəlkə də dərin sevgilərinin xatirinə həmin övladın qız olmağını istəyir və ona ad da qoyurlar - Sevgi. Nə gözəl. İdealın həyata çevrilməsi, reallığa qovuşması adda öz əksini tapır.

Biz gənclərin duyğulanmaları ilə əsl insan həyatının real gözlə heç vaxt görünə bilməyəcək mənzərələrini müşahidə edirik. Burada gənclərin özlərindən əvvəlki nəsil təmsilçiləri haqqındakı düşüncələri də maraqlıdır. Xüsusilə, hər birinin nənə, baba təsəvvürləri oxucuda xüsusi nostalji duyğular oyadır. Açığı, Nuriyyənin baba haqqındakı düşüncələri məndə qəribə ovqat yaratdı - Rəhim babamı yada saldım. 11 yaşıma qədər mən Rəhim babamı necə görmüşəm, bunu yada sala bilmirəm. Hətta müəllimin baba haqqında fikirlərimi soruşanda da çaşıb qalmışdım. Müəllimim soruşurdu ki, baban müharibədə necə iştirak edib? Cavab verə bilmirdim. Halbuki həmin günlərdə II Cahan mübarizəsində qələbə ilə bağlı uşaqların düşüncələri divar qəzetinə yazılmalı idi. Mən cavab verə bilmədim. İndi də onun ağrısını çəkirəm. Ancaq, o cavab verə bilmədiyim sualın cavabını elə həmin an başlayaraq öyrənməyə başladım.

*(Davamı 16-cı səhifədə)*

# YAŞANMIŞ ÖMÜRDƏN YADDAŞ İMPROVİZƏLƏRİ

## *Təhminə Rafiq qızının «Azad» əsəri haqqında düşüncələr*

*(Əvvəli 8-ci səhifədə)*

Babam Rəhim Ağaverdi oğlu Əmənullayev beş il o vaxt dediyimiz Vətən uğrunda savaşmışdı. Çoxlu orden və medalları var idi. Mənim qəlbimdə nisgil qaldı. Çünki on bir yaşıma qədər mən bunları hələ bilmirdim. Zənnimcə, T.Rafiq qızı burada varislik məsələsini də qoyur. Yeni nəsil gənclərə təlqin edir ki, mənən güclü olmaq istəyirsinizsə, birinci növbədə babanızı, nənənizi yaxşı tanımalısınız. Bütövlükdə əsər mənəvi tamlığa, varisliyin qorumasına xidmət edir desəm də, qənaətimdə yanılmaram.

Əsərin ikinci hissəsi qaynar sevgi duyğuları ilə yaşantıların üstünə əsər soyuq küləklə başlayır. Azad hərbi xidmətə çağrılır. Artıq 1992-ci idir. Dünya bir-birinə qarışıb, Vətənin sərhədləri düşmən tərəfindən təhdid olunur. Azad öz dostları ilə (həmyaşıdları ilə) hərbi xidmətə yola düşür. İki gəncin ayrılıq məqamındakı düşüncələri də çox sarsıdıcıdır. Burada da müəllifin xüsusi Vətən sevdalı duyğlanmaları oxucu ruhuna sirayət edir: «Vətənə xidmət hər birimizin müqəddəs borcudur. Əsgərlik dönəmlərində insanın həyatının bir dövriyyəsi olur. Bu dönəmlər insanın həm də sevdiklərindən uzaqda olması və onları gözləməsi ilə əlaqəli duyğu dolu anlarla yadda qalır. Bu cür ayrılıqlar sevdiyimiz birilə bir müddətlik ayrılmağımız deməkdir. Bu, bir çox duyğusal tərəflərdən təsirlənir, həm də insanın mənəvi gücünü sınaqlayır. Gözləmək isə ayrıldığımız insanı yenidən görmək və bir araya gəlmək ümidilə yaşamaq deməkdir. Gözləmək - bir insanın sevgi, ümid və səbr hisslərini özündə birləşdirir». Baxmayaraq ki, yenə mətn sevgi duyğulanmaları ilə süslənib, amma bu sevgilərin Vətənlə bağlı hissə qalib gəlmək şansı yoxdur. Çünki, Vətən ən ali amal və hiss kimi gənclərin qəlbinə hakimdir. Elə ona görə Azad müharibəyə gedəndə Nuriyyə buna etiraz etmir. Hətta sövq-təbii hisslə bu ayrılığın nələr gətirəcəyini bilsə də.

Azad 1992-ci ilin sonlarında məzuniyyətə buraxılır. Bu zaman o, Nuriyyəyə öz gündəliyini bağışlayır. Başqa sözlə, Azadın sevgi duyğulanmalarının mahiyyəti ayrılıqda, yaşadığı iztirab hissləri bu gündəlikdə ifadə olunub. O, yenidən cəbhə bölgəsinə qayıdır. 1993-cü ilin mart ayının altısında şəhidlik zirvəsinə yüksəlir.

Bəli, müharibə ölümlər deməkdir, müharibə viran omluş yurdlar deməkdir, ən başlıcası, yarımçıq qalmış əhdlər, peymanlar deməkdir, nakam sevgilər deməkdir. Əslində, Təhminə Rafiq qızının (Təhminə Təknur) elə bu əsəri həmyaşıdları adından - nakam sevgi duyğuları yaşayan gəncliyin adından müharibəyə etiraz manifestidir.

Ən dəhşətlisi odur ki, Nuriyyə bu gün də Azada olan sevgisinin iztirabları ilə yaşayır və müəllifin qeyd etdiyinə görə indi onun əlli yaşı var və Cəlilabad rayonunun Çinar kəndində yaşayır. Zənnimcə, bu, elə dəhşətli bir sonluqdur ki, bundan sonra gərək bu gənclərin həyat romanı ilə tanış olan hər hansı bir səlahiyyət sahibi «atəş!» əmri verməsin.

Görəsən, Nuriyyənin - əlli yaşlı nakam sevgi ağrısı daşıyan bu qızın - mənən əhdinə sadiq olan Azərbaycan qadınının bugünkü ağrılarının, mənəvi əzablarının, eşq iztirablarının günahına kim sahib çıxar?

Əsər belə bir ritorik suala cavabla sona çatır və bu cavab hər bir oxucunun ruhundan səsə çevrilir və ancaq o səsi öz sahibi eşidir...

İnanıram ki, Təhminə Rafiq qızı (ona da inanıram ki, yaradıcılığına davam etsə, Təhminə Təknur təxəllüsünü mütləq qəbul edəcək) yaradıcılığına ilk sevgidən gələn sağlam, saf, mənəvi inamla bundan sonra da davam edəcək.

***Əli Rza XƏLƏFLİ***

***18.06.2025***